**UOT 745/746**
**https://doi.org/10.59849/2311-8482.2024.1.114**

**NƏRMİN EMİNBƏYLİ***

# AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRMİŞ ƏCNƏBİ HEYKƏLTARAŞLARIN PORTRET ƏSƏRLƏRİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**s***Məqalədə Azərbaycanda fəaliyyət göstərmiş xarici heykəltəraşların yaradıcılığına nəzər salınır. Həmin əcnəbi heykəltəraşların fəaliyyəti tarixi-xronoloji ardıcıllıqla tədqiqata cəlb olunur. Əsasən XX əsrin əvvəllərindən – Azərbaycanın sovetləşməsindən sonra ölkəyə dəvət olunmuş S.Erzya, Y.Keylixis, Y.Tripolskaya və R.Sabsay kimi heykəltəraşların yaratdıqları sənət əsərləri, xüsusilə onların yaratdıqları K.Marks, F.Engels, V.Lenin, S.Kirov, 26 Bakı komissarları və digər heykəllər sənətkarlıq baxımından tədqiq olunur. Müəyyən edilir ki, sovetləşmədən sonra sovet və kommunist ideologiyasının təbliğatı sahəsində milli kadrar deyil, ölkəyə kənardan dəvət olunmuş sənətkarlar daha çox fəaliyyət göstərmişlər.*

**Açar sözlər:** *Heykəl, dəzgah, əcnəbi, plastika, obraz, portret.*

## Giriş

Azərbaycanda sovet hakimiyyəti yarandığı ilk gündən başlayaraq ideoloji sahəyə xüsusi diqqət yetirilmişdir. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən və bolşeviklər hakimiyyəti zəbt etdikdən sonra Azərbaycanda da “Monumental təbliğat” planı sovet incəsənətinin, o cümlədən heykəltəraşlığının təməl prinsipinə çevrildi. Cəmiyyətdə marksizm-leninizm nəzəriyyəsini geniş təbliğ etmək, insanlara sovet vətənpərvərliyi, proletar beynəlmiləlçiliyi, əməyə kommunist münasibəti, ictimai fəallıq aşılamaq və s. kimi məsələlər heykəltəraşlığın inkişaf məramnaməsinə çevrildi. Siyasi və ideoloji məqsəd daşıması ilə bərabər bu təbliğat planı heykəltəraşlığın sürətli inkişafına təkan verdi. Azərbaycan heykəltəraşlığının zəngin tarixi ənənələrə malik olmasına baxmayaraq, XX əsrin əvvəllərində respublikamızda heykəltəraşlığın səviyyəsi dünya, o cümlədən Rusiya hüdudları ilə müqayisədə xeyli aşağı idi. Ölkəmizdə peşəkar heykəltəraş kadrlarının hazırlanmasına ehtiyac vardı. Bu mənada Azərbaycanda peşəkar heykəltəraşlığın təşəkkülü və inkişafında ölkəmizə dəvət edilmiş sənətkarların zəhməti danılmazdır. Təsviri sənətin bu sahəsində böyük təcrübəyə malik olan heykəltəraşlardan Y.Keylixis, E.R.Tripolskaya, S.D.Erzya sovet hakimiyyətinin ilk illərində respublikamızda çalışaraq milli kadrlar hazırlığına səy göstərmişlər. Onlar xalq kütlələrinin düşüncəsinə yaxın mövzularda əsərlər yaratmış və sosializm qurucusu kimi yeni insan obrazı təbliğinə başlamışlar.

## Əsas təhlil

1918-ci ildə Xalq Komissarlar Soveti inqilabi xadimlər K.Marksa və F.Engelsə birinci növbədə heykəltəraşlıq abidələri qoyulması haqqında göstəriş vermişdir. Artıq 1920-ci ildə Bakının mərkəzində Y.Keylixis tərəfindən Karl Marksın büst-heykəli düzəldilərək ucaldılmışdır. Sovet hakimiyyətinin ilk dövrlərində Bakıda qurulmuş büst-heykəllər dövrümüzə qədər gəlib çatmamışdır və onlar haqqında hansısa fikir söyləmək çətindir. Heykəltəraş Y.Keylixis tərəfindən Bakı şəhərində 1921-ci ildə F.Engelsə aid büst-portret də ucaldılmışdır. Bu abidə də şəhərimizdə çox qısa bir müddət qalmışdır. Müəyyən səbəblərdən bu abidə də ucaldığı yerdən götürülmüşdür. Sənətşünaslıq elmləri doktoru, professor Cəmilə Novruzova qeyd edir ki, “yaradılmış ilk monumental büst-heykəllər şübhəsiz ki, monumental təbliğatın tələblərinə cavab verməyiblər. Karl Marksın heykəlinin ucaldıqdan az müddət sonra ictimaiyyətin tələbi ilə yaxışdırılması heykəlin qənaətbəxş səviyyədə olmamasından xəbər verir. Yəqin ki, elə bu səbəbdən də 1920-21-ci illərdə Bakıda ucaldılmış büst-heykəllər sonralar yığışdırılmışdır”. [5, s.24].

Azərbaycanın sovetləşməsi ölkədə heykəltəraşlıq sahəsində fəaliyyət göstərəcək kadrların yetişdirilməsinə şərait yaratmaqla yanaşı, ölkənin iri şəhərlərində ünvanlı abidələrin ucaldılması

ənənəsinin başlanğıcını qoymuş oldu. Düzdür, Bakıda ucaldılan ilk heykəllərin müəllifləri heç də milli kadrlar deyildi. Onların müəllifləri sosializm ideyalarının Azərbaycanda yayılmasına yaradıcılıq töhfələri vermək üçün Bakıya dəvət olunmuş S.Erzya, Y.Keylixis, Y.Tripolskaya və R.Sabsay idi. Onların yaratdıqları heykəl və büstlər (K.Marks, F.Engels, V.Lenin, S.Kirov, 26 Bakı komissarları və s.) əsasən ideoloji yüklü olmaqla, bilavasitə quru gerçəkçiliyə, oxşarlığın əldə olunmasına tapınan plastik tutuma malik olduğundan, həm də çox vaxt sənətlərin sintezi məsələsinin uğursuz həllinin qurbanı olduqlarından maraqsız görünürdülər. Əsasən möhkəm materiallardan hazırlanmayan, daha çox ideoloji təbliğat vasitəsi kimi istifadə olunan həmin heykəllərin ömrü bir qayda olaraq az olurdu.

1923-ci ilin axırlarında heykəltəraş S.D.Erziyanın Bakıya dəvət olunması Azərbaycan heykəltəraşlığında müsbət hadisələrdən biri oldu. Xalq Maarifi Komissarlığı S.D.Erziyanı Bakı ali rəssamlıq məktəbinin nəzdində heykəltəraşlıq fakültəsinin təşkili məqsədilə dəvət etmişdir. S.D.Erziyanin emalatxanasında ilk milli heykəltəraş qadınımız Zivər Məmmədova, İbrahim Quliyev kimi milli kadrlar təcrübə keçirdilər. Leninqradlı heykəltəraş, sonralar SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü olmuş Vladimir İnaqlın da yaradıcılıq yolu bu emalatxanadan başlamışdır [4, s. 17].

Bakı Ali Rəssamlıq Məktəbində pedaqoji fəaliyyətlə məşğul olan Stepan Dmitrieviç Erziya eyni zamanda Bakının memarlığına bir gözəllik verən heykəl əsərləri üzərində də işləmişdir. Bakıda Erziyanın yaradıcılığı o zaman Həmkarlar İttifaqının yerləşdiyi binanın tərtibatı ilə bağlı olur. O, burada ilk dəfə olaraq fəhlə sinfinə həsr olunmuş çoxsaylı fiqurlar yaradır və bu heykəllər Bakı şəhərində böyük əks-səda doğurur. Azərbaycan həmkarlar ittifaqının tapşırığı ilə, 1925-ci ilin əvvələrində S.D.Erziya Həmkarlar İttifaqının yerləşdiyi binanın (Sahil bağı ilə üzbəüz) xaricdən və daxildən bəzəmək üçün bir neçə heykəltəraşlıq işləri görmüşdür. Bu işlərə kömək etmək üçün S.D.Erziya tərəfindən heykəltəraşlar V.İnqal, D.Demyonov və eləcə də Bakı rəssamlıq məktəbinin tələbələri dəvət olunmuşdular. Azərbaycanın ilk heykəltəraş qadını Zivər Məmmədova və İbrahim Quliyev də kömək etmişlər. Azərbaycan neftçilərinin həyatından götürülmüş bu əsərlər indi də binanın frontonunu bəzəyir.

1926-cı ildə Bakıya gələn heykəltəraşlardan biri də P.V.Sabsay olmuşdur. Bakıda o, milli plastik sənətin inkişafına və bədii kadrların hazırlanması işinə böyük fayda vermişdir. Onun təşəbbüsü ilə rəssamlıq məktəbində heykəltəraşlıq kadrlarının yetişdirilməsinə diqqət artır. P.Sabsay 1930-cu illərdə yaratdığı əsərlər içərsində portret janrına daha üstünük verir. Bu dövrdə heykəltəraşın yaratdığı əsərlər içərsində satirik şairimiz Mirzə Ələkbər Sabirin (1933-cü il. Şamaxı şəhəri), leytinant P.L.Şmidt abidə-büstləri, M.F.Axundovun (1934) büstü xüsusilə seçilmişdilər. Böyük Vətən müharibəsi illərində respublikamızın bütün rəssamları kimi P.Sabsay da öz yaradıcılığını xalqımızın qələbəsi işinə həsr etdi. Müharibə zamanı o, onlarla heykəl-portret yaratmış və sovet ittifaqı qəhrəmanlarının, cəbhədə və arxada fədakarlıq göstərən sovet adamlarının surətləri üzərində işləmişdir. Sovet İttifaqı Qəhramanları X.Mustafayev, M.Quliyevin, P.Klimovun və başqalarının portretləri müharbə illərinin məhsuludur.

P.Sabsay həmçinin Bakı neftçilərinin qabaqcıl nümayəndələrinin obrazlarını canlandırmışdır. Biz onun adlı-sanlı neft ustaları olmuş Ağa Nemətullanın, Gülbala Əliyevin, Baba Pir Məmmədin, Mixail Kaveroçkinin, Ağa Qurban Əliyevin və başqalarının heykəllərini görə bilərik. Həmçinin dövrünün qabaqcıl kolxozçularından Qüdrət Səmədovun, mühəndis S.Vəlixanovanın, elm və mədəniyyət xadimlərimizdən professor Esmanın, artist Sidqi Ruhullanın, yazıçı S.Rəhimovun, S.Rüstəmin büstləri də onun yaradıcılıq məhsuludur.

Bir çox mədəniyyət xadimlərinin portretləri müxtəlif taleli, müxtəlif yaşlı və ixtisaslı insanların obrazlarıdır. Lakin onları bir ümumi cəhət birləşdirir - bu insanlar ömürlərini öz seçdikləri sahəyə həsr edən şəxsiyyətlərdir. Məhz bu işlər əla sosial portretlər olaraq, heykəltəraşın incə psixoloji, həm də incə rəsm, nöqsansız formalar yaradan sənətkar olduğuna əyani nümunədirlər.

Bütün yaradıcılığı boyu yaratdığı portretlərdə yüksək icra sənətkarlığı sərgiləyən Pyotr Sabsay müasirlərinə həsr etdiyi əsərlərdə də bu ənənəni davam etdirməklə, ədəbi şəxslərin simalarında səciyyəvi xüsusiyyətlərini geniş bədii ümumiləşdirmələrdə ifadə etməklə, onların obrazlarını yaratmışdır. Onun şair Süleyman Rüstəm (1950) və Rəsul Rza (1952), Səməd Vurğun (1958), rus şairi A.S.Puşkinə (1962) bədii münasibətinin estetik kökündə də qəhrəmanlarının simasında şəxsi səciyyəvi və dövrün tipik xüsusiyyətlərinin bir araya gətirilməsi, bu dəyərlərin obrazlılığının əldə olunmasına yönəldilməsi durur [3, s.76].

P.Sabsay yazıçı Süleyman Rəhimova (1957) və şair Səməd Vurğuna (1958) həsr etdiyi portretlərdə söz adamlarının obrazlılığının əldə olunması üçün fərqli material seçmiş və onun özünəməxsus bədii-texniki imkanlarını qarşısına qoyduğu yaradıcı vəzifənin uğurla yerinə yetirilməsinə yönəldə bilmişdir. İctimaiyyət arasında kifayət qədər tanınan və məşhur olan yazıçı və şairin portretləri üçün tunc material seçən müəllif, bununla da plastik görüntülərin inandırıcılığı ilə yanaşı, həm də yumşaq forma keçidləri ilə daşıdıqları yüksək intellekti göstərə bilmişdir. Bunun nəticəsində hər iki əsərdə sözü süsləməyi bacaran yaradıcı şəxsiyyətlərin yaratmaq eşqinə bələnən və obraz səviyyəsinə yüksəldilmiş portretləri ilə qarşılaşırıq.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Samir Sadıqov heykəltəraş Pyotr Sabsayın portret əsərləri haqqında qeyd edir ki, "P.Sabsay yaratdığı portretlərdə hər şeydən əvvəl obrazların psixoloji əlamətlərini və təsvir etdiyi adamların fərdi xüsusiyyətlərini bacarıqla əks etdirir. Onun yaratdığı portretləri bir ümumi cəhət birləşdirir - bu insanlar ömürlərini öz seçdikləri sahəyə həsr edən şəxsiyyətlərdir" [4, s.76].

Tanınmış tişə ustası Pyotr Sabsayın da yaradıcılığında dövrünün tanınmış adamlarının obrazlarına tarixilik bəxş etmək nümunələri kifayət qədərdir. Bu baxımdan onun müxtəlif peşə adamlarına həsr etdiyi portretləri qeyd etmək olar. Heykəltəraşın qırxıncı-altmışıncı illərdə yaratdığı neftçilərin – Gülbala Əliyevin (1948), Fyodr Orexovun (1949) və Mixail Kaveroçkinin (1954) portretləri bu qəbildəndir.

Onun digər peşə adamlarının – akademik İosif Yesmanın (1955), yazıçı Süleyman Rəhimovun (1956), rəssam Səttar Bəhlulzadənin (1965), dramaturq Sabit Rəhmanın (1963-1965), aktyor Ağasadıq Gəraybəylinin (1963-1965) portretlərində də onların fərdi keyfiyyətlərini əks etdirən plastik formaların qabardılmasını müşahidə etmək mümkündür.

1922-ci ilin əvvəlində Bakıya gəlmiş Yelizaveta Rodionovna Tripolskaya (1881-1956) Azərbaycan heykəltəraşlıq məktəbinə böyük töhfə vermişdir. Onun respublikamızda otuz ildən artıq davam etmiş fəaliyyət dövrü ölkədə heykəltəraşlığın inkişafının mühüm mərhələlərinə təsadüf etmişdir.

E.R.Tripolskaya Bakıya demək olar ki, Erziya ilə birlikdə gəlmişdir. Bu tişə ustasının bütün sonrakı yaradıcılığı respublikamızın bədii həyatı ilə sıx bağlı olmuşdur. Dəyərli yaradıcılıq irsi qoyub getmiş Tripolskaya Peterburqda və Parisdə təhsil almış peşəkar sənətkar, hərtərəfli mədəniyyətə malik bir şəxsiyyət idi. E.R.Tripolskayanın monumental xarakterli ilk böyük işi Elmlər Akademiyası Rəyasət heyətinin yerləşdiyi binanın interyerini bəzəyən klassik əhval ruhiyyədə həll olunmuş barelyef və qorelyeflər olmuşdur. Elmə, incəsənətə, maarifçiliyə həsr olunmuş barelyeflərdə insan fəaliyyətinin müxtəlif sahələrini simvolizə edən mifoloji personajlar təsvir olunub [4, s.15].

E.R.Tripolskayanın modelə mülayim münasibət, onun fərdi özünəməxsusluğu tankçı "R.Yelçiyev" və Sovet İttifaqı Qəhramanı "M.Abbasova", "Balerina Pavlova", "Çılğın qız", "Aktyor Yurevin", "Doktor A.P.Passeka"ya aid portretlərinə məxsusdur. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Samir Sadıqov qeyd edir ki, "E.R. Tripolskaya təsvir etdiyi surətin etnoqrafik xüsusiyyətlərinə, əsərin ideya və məzmununa ciddi yanaşmaqla bitkin sənət əsərləri meydana gətirmişdir". [5, s. 58].

**Nəticə**

Bu dövrdə təsviri sənətin müxtəlif sahələrində novatorluq cəhdləri nümayiş etdirməyə çalışan sənətkarın da elə zamanında icrası çox çətin görünən vəzifə qoyulmuşdu və yeniliyə can atanlara əsərlərinin bədii həllini "formaca milli, məzmunca sosialist" prinsipi çərçivəsində həll etməyi tövsiyə etmişdilər. Bu vəzifə-tövsiyənin icrası nə qədər mürəkkəb olsa da, təsviri sənətin müxtəlif sahələrində, o cümlədən də heykəltəraşlıqda fəaliyyət göstərən sənətkarlar realizm-gerçəkçi sənətin bədii ifadə çərçivəsini genişləndirməyə çalışırdılar. Y.Keylixis, S.Erziya, P.Sabsay, Y. Tripolskaya, F.Əbdürrəhmanov, C.Qaryağdı, Z.Məmmədova, H.Əhmədov və b. İkinci dünya savaşının başlanmasına qədərki dövrdə yaratdıqları portret janrlı əsərlər buna sübutdur.

## ƏDƏBİYYAT

1. Bağırov, V. Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı. XX əsr. Bakı: 2004.
2. Nəcəfov, M., Novruzova, C. Heykəltəraşlıq haqqında. Bakı: 1960, 76 s.
3. Novruzova, C. Sovet Azərbaycanının heykəltəraşlığı. Bakı: 1973.
4. Sadıqov, S. Azərbaycan heykəltəraşlığında əcnəbi sənətkarlar. Bakı: 2017, s.150
5. Новрузова, Д.Г. Скульптура Советского Азербайджана. Баку: 1979, 160 с.

**** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının***
***"İncəsənət tarixi" kafedrasının baş müəllimi***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru,***
***E-mail: narmin_eminbayli@yahoo.com***

**Narmin Eminbeyli**

### ARTISTIC FEATURES OF PORTRAIT WORKS OF FOREIGN SCULPTORS WORKING IN AZERBAIJAN

In the article the activities of the foreign sculptors worked in Azerbaijan are looked through. The activities of these foreign sculptors are involved in the research in historical and chronological order. The art works created by sculptors such as S.Erzya, Y.Keylikhis, Y.Tripolskaya and R.Sabsay, who were invited to the country from the beginning of the 20th century - after the Sovietization of Azerbaijan, especially the monuments such as K.Marx, F.Engels, V.Lenin, S.Kirov, 26 Baku commissioners and others are studied from the point of view of craftsmanship. It is determined that after Sovietization in the field of propaganda of Soviet and communist ideology, not national staffs, but the masters invited to the country from the outside acted more.

**Keywords**: *Sculpture, easel, foreigner, sculpture, image, portrait.*

**Нармин Эминбейли**

### ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ ПОРТРЕТОВ ИНОСТРАННЫХ СКУЛЬПТОРОВ, РАБОТАЮЩИХ В АЗЕРБАЙДЖАНЕ

В статье рассматривается творчество иностранных скульпторов, работавших в Азербайджане. Деятельность этих зарубежных скульпторов рассматривается в историко-хронологической последовательности. В основном изучаются художественные особенности произведений искусства, созданные такими скульпторами, как С.Эрзя, Ю.Кейлихис, Ю.Трипольская и Р.Сабсай, приглашенными в Азербайджан с начала 20 века - после советизации Азербайджана, в том числе такие работы как памятники К.Марксу, Ф.Энгельсу, В.Ленину, С.Кирову, 26 Бакинским комиссарам и др. Автор определяет, что после советизации в сфере пропаганды советской и коммунистической идеологии более активными были приглашенные из-за границы художники, а не национальные кадры.

**Ключевые слова:** *Скульптура, станковая скульптура, иностранные художники, образ, портрет.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 03.02.2024**
**Son daxilolma tarixi:11.03.2024**